# Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişikliklər və «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli, 1115 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə»yə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2008-ci il 10 mart tarixli, 2718 nömrəli Sərəncamına dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli, 521-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 736 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8 (III kitab), maddə 612; 2001-ci il, № 7, maddə 462, № 10, maddə 640, № 12, maddə 755; 2002-ci il, № 1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003-cü il, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004-cü il, № 1, maddələr 19, 26, № 3, maddələr 138, 141, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608, № 11, maddə 909, № 12, maddə 1005; 2005-ci il, № 2, maddələr 67, 69, № 4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802; № 12, maddə 1101; 2006-cı il, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407, № 7, maddə 590, № 8, maddələr 662, 663, 674, 675, 679, № 9, maddə 743, № 11, maddələr 942, 945; 2007-ci il, № 1, maddə 11, № 2, maddə 87, № 3, maddə 230, № 7, maddə 715, № 8, maddələr 767, 769, № 11, maddələr 1110, 1116, 1120; № 12, maddə 1227; 2008-ci il, № 1, maddə 7, № 3, maddə 186) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1.1. 3.31-ci bənddə *«253-cü,»* rəqəmindən sonra *«253-2-ci,»* rəqəmi əlavə edilsin, *«və 257-ci»* rəqəmi *«, 255-1-ci, 255-2-ci, 255-3-cü, 257-1-ci və 257-5-ci»* rəqəmləri ilə əvəz edilsin;

1.2. 3.42-ci bənd çıxarılsın;

1.3. 3.44-cü bənddə *«digər mühasibat uçotu subyektlərinə»* sözlərindən sonra *«, həmçinin sığorta, təkrarsığorta və sığorta vasitəçiliyinə»* sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 3.51-ci və 3.52-ci bəndlər əlavə edilsin:

*«3.51. həmin Məcəllənin 199-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə sığorta, təkrarsığorta və sığorta vasitəçiliyi fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;*

*3.52. həmin Məcəllənin 253-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, yanğından icbari sığortaya münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, icbari ekoloji sığortaya münasibətdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, sərnişinlərin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi baxır.».*

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli, 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 9, maddə 872; 2008-ci il, № 3, maddələr 169, 186) ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»na aşağıdakı əlavələr və dəyişiklik edilsin:

2.1. 2.1-ci bənddə *«234-cü,»* rəqəmindən sonra *«253-1-ci (öz səlahiyyətləri daxilində)»* sözləri əlavə edilsin;

2.2. 2.2-ci bənddə *«221.2-ci»* rəqəmindən sonra *«, 253-1-ci (öz səlahiyyətləri daxilində)»* sözləri əlavə edilsin;

2.3. 2.3-cü bənddən *«157-ci,»* rəqəmi çıxarılsın, *«166.1-ci»* rəqəmindən sonra *«, 253-1-ci (öz səlahiyyətləri daxilində)»* sözləri əlavə edilsin.

3. «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli, 1115 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə»yə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli, 2718 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 211) 1.3-cü bəndi çıxarılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

4.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 253-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə auditorun mülki məsuliyyətinin icbari sığortasına münasibətdə baxan müvafiq dövlət orqanı barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 24 iyun 2008-ci il***

***№ 786***

***«Respublika» qəzetində dərc edilmişdir (26 iyun 2008-ci il, № 138) («VneshExpertService» LLC).***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (6 iyul 2008-ci il, № 146) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2008-ci il, № 6 (132), maddə 504) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*